# SƏDİ ŞİRAZİNİN «GÜLÜSTAN» ƏSƏRİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

**S.B.ALLAHVERDİYEVA**
*Bakı Dövlət Universiteti*

Şərq poeziyasında böyük şöhrət qazanmış Sədi Şirazi dünya ədəbiyyatının görkəmli nümayəndələri olan Firdovsi, Xəyyam, Nizami Gəncəvi, Hafiz və Füzuli ilə bir sırada dayanır.

Sədi Şirazi təqribən 1184-cü miladi ilində İranın Şiraz şəhərində anadan olmuşdur. Ruhani ailəsində doğulan Sədi kiçik yaşlarından atasını itirmiş və bu onu çox kədərləndirmişdir. O, uzun müddət atasını unuda bilməmiş, özünün «Gülüstan» və «Büstan» əsərlərində ona bir sıra təsirli şerlər həsr etmişdir.

Ölkəsində baş verən hadisələrlə bağlı Sədi vətənini tərk edərək Bağdad şəhərinə gedir. O, burada məşhur «Nizamiyyə» məktəbində Əbu İshaq-Şirazi, Əbülfərəc Əbdürrəhman ibn Cövzi və sonra Sührəverdidən dərs almış, ərəb dilini, Şərq fəlsəfəsini və digər elmləri mükəmməl öyrənmişdir.

Böyük istedada və zəngin mənəviyyata malik olan Sədi müəllimlərinin təlimi və Bağdadın gözəl təbiəti ilə kifayətlənməyib, Yaxın və Orta Şərq ölkələrini diyar-diyar dolaşmaq və həmin xalqların adət-ənənələrini və mədəni irsini öyrənmək qərarına gəlir.

O, Azərbaycan, Kiçik Asiya, Həbəşistan, Misir, Suriya, Fələstin, Hindistan, İran torpağını əksərən piyada səyahət etmiş, ticarət gəmilərində Xəlici — fars, Ümman dənizi, Hind okeanı və Aralıq dənizindən keçmişdir. Elə buna görə də çox zaman onu dövrünün böyük səyyahı hesab edirdilər.

Səyahətlərdən yorulan və böyük həyat təcrübəsi qazanan Sədi XIII əsrdə vətəni Şiraza dönür. Bu zaman Atabəy Əbubəkr Səd İbn Zəngi Şirazın hakimi idi. O, ölkəni monqollardan xilas etdiyi üçün xalqın və o cümlədən böyük bir həyat məktəbi keçən Sədinin rəğbətini qazanır. Elə buna görə də şair «Gülüstan» əsərini ona ithaf edir.

Şərq ədəbiyyatında bənzəri olmayan «Gülüstan» əsəri son dərəcə mahiranə bir üslubda həm nəsr, həm də şerlə yazılmışdır. Şərqdə uzun müddət Sədinin ustalığı və poetik tapıntısı olan «Gülüstan» əsərindən dərs vəsaiti kimi istifadə edilmişdir. Böyük qüdrət və ilhamın nəticəsi olan bu əsər elə məharətlə yazılmışdır ki, istər onun nəsr hissəsi, istərsə də nəzm hissəsi ecazkar bir qələmin məhsulu olduğunu göstərir. Əsərin dili olduqca sadə və zəngindir. Bununla bərabər əsərdə istifadə olunan təşbeh, məcaz, səc, kinayə və başqa bədii ifadə tərzləri də onun dəyərini artırır.

Böyük ilhamla yazılan bu əsərdə Sədi öz nəsihətlərini elə məharətlə oxuculara aşılayır ki, ondan hər kəs: hakim də, məhkum da, alim də, cahil də dərs götürə bilər. Kim bu nəsihətlərdən nəticə çıxara bilsə, o,

həyatda çox şey qazanar:

Sədinin sözləri bir nəsihətdir,
Onun hər kəlməsi dərin hikmətdir.
Yazıq o şəxsə ki, sevmir nəsihət,
Nəsihət sevənlər qazanar sərvət.

Sədi yaradıcılığı insanlar üçün tərbiyə məktəbidir, ibrət dərsidir, nəsihətidir, məsləhətdir, ədalətə çağırışdır. O, bu məsələləri elə məharətlə, ustalıqla izah edir ki, oxucu ondan yan keçə bilmir. Onun hər bir hekayəti həyat dərsidir. Prof. Z.Qaralov «Tərbiyə» adlı (Bakı, 2003) əsərində S.Şirazi yaradıcılığını pedaqoji baxımdan təhlil edərək, böyük ustalıqla ümumiləşdirmələr aparır:

«1. İnsanları və dünyanı hərtərəfli dərk etməyə marağının və potensial idraki imkanlarının genişliyi;

2. Şərqin məşhur «Nizamiyyə» məktəbində dövrünün güclü müəllimlərindən dərs alması;

3. Dünyanın bir çox ölkələrində: Hindistandan Misirə qədər ərazilərdə yaşayan xalqların adət-ənənələrini, mədəni irsini öyrənməsi;

4. İslam elminə və mədəniyyətinə, İslam mənəviyyatına dərindən yiyələnməsi;

5. Müxtəlif təbəqələrdə təmsil olunan şəxslərlə yaxından tanışlığı, daim xalq içərisində fəaliyyət göstərməsi»[1].

Dünyanı və insanları hərtərəfli dərk edən ümumbəşəri mənəvi dəyərləri, o cümlədən tərbiyə, nəzəriyyə və təcrübələri yüksək səviyyədə mənimsəyən Sədi yaradıcılığında «Gülüstan» əsəri xüsusi yer tutur. Böyüməkdə olan gənc nəsil üçün əsl mənada tərbiyə, əxlaq və davranış dərsliyi olan «Gülüstan» əsəri 8 fəsildən ibarətdir:

1. Hökmdarların rəftarı haqqında.
2. Dərvişlərin əxlaqı haqqında.
3. Qənaətin fəziləti haqqında.
4. Susmağın faydası haqqında.
5. Eşq və cavanlıq haqqında.
6. Zəiflik və qocalıq haqqında.
7. Tərbiyənin təsiri haqqında.
8. Söhbət qaydaları haqqında.

Bu hekayətlərində o, ümumbəşəri mənəvi dəyərlər və tərbiyə məsələləri ilə bağlı olduqca dəyərli fikirlər söyləyir.

Bu fikirlər bu gün üçün də aktualdır və tərbiyə nəzəriyyəsinin zənginləşməsində mühüm yer tutur.

Sədi uşaqların tərbiyəsində əməyin xüsusi rolunu göstərərək, onların sənət, peşə öyrənmələrinə çox əhəmiyyət verir. İnsan başqalarından öz ağlına və ləyaqətinə görə fərqlənir. O, gənc nəslə tövsiyə edir ki, ata malına arxayın olmaqdansa, sənət öyrənmək, zəhmətə alışmaq lazımdır. Onun fikrincə, sənət qaynar bulaq, tükənməz xəzinədir. Sədi əxlaqi saflığın, mənəvi paklığın əsasını əməkdə görür. Elm, sənət öyrənməyən oğulları Sədi haqlı olaraq bədbəxt adlandırır və hekayətlərinin birində deyir: «Bir alim uşaqlarına nəsihət verirdi ki, dünyanın mal və dövlətinə arxalanmaq olmaz... sənət isə qaynar bulaq və tükənməyən xəzinədir. Əgər sənət sahibi kasıblığa düşsə, qorxusu yoxdur, çünki sənətin özü ona dövlətdir. Sənət sahibi haraya getsə, hörmət görər... sənəti

[1] Z.Qaralov. Tərbiyə. III cild. Bakı, 2003, səh. 67.

olmayan isə hara getsə gədalıq edib çətinlik çəkər...

Elmli, kamallı kəndli övladı,
Gedib vəzir oldu şaha, sultana.
Lakin fərasətsiz vəzir balası,
Kəndlərdə diləndi hey yana-yana».

Hər bir insan şərəf və ləyaqətini qorumaq üçün öz zəhmətinə arxalanmalı, başqasına boyun əyib buğda çörəyi yeyincə öz arpa çörəyini yeyib başı yuxarı gəzməsi daha yaxşıdır. İki qardaş hekayətində Sədi yazır: «İki qardaş var idi, birisi şah sarayında qulluq edər, o birisi öz zəhmətilə çörək yeyərdi. Bir gün varlı qardaş yoxsul qardaşına dedi: nə üçün şaha qulluq etmirsən ki, canını əziyyətdən qurtarasan?». Qardaşı dedi: «Bəs sən nə üçün işləmirsən ki, qulluq fəlakətindən xilas olasan?..».

Göründüyü kimi, Sədi əməkçi xalqı cəmiyyətin ən ləyaqətli, ən şərəfli üzvü hesab etmiş, onları yüksək qiymətləndirmişdi. Hekayətlərinin birində deyir: «Hatəmi-Taidən soruşdular: «Dünyada özündən səxavətli bir adam görüb eşitmisənmi?». Dedi: «— Bəli, bir gün qırx dəvə qurban kəsib ərəb əmirləri ilə səhranın bir guşəsinə çəkilmişdim. Meşədən şələ bağlayıb aparan bir odunçu gördüm. Dedim:

— Nə üçün Hatəmin qonaqlığına getmirsən, bu saat bütün xalq onun süfrəsi başına toplanmışdır.

Dedi:

Kim öz əməyilə dolansa, əlbət,
Hatəmi-Taidən götürməz minnət.

İnsafla demək lazımdır ki, mən onu özümdən daha səxavətli və mərd gördüm».

Deməli, həyatı ləyaqətlə yaşamaq üçün elm və sənət sahibi olmaq ən vacib məsələdir. Hər bir insan təkcə özünü yox, bütün insanları düşünməli, nə üçün yaşadığını dərk etməli, cəmiyyətə, insanlara xeyir verməlidir. Belə olduqda insanın dəyəri daha da artır:

Biliyin olsa da bir ümman qədər,
Nadansan əməlin olmasa əgər,
Eşşəyə yüklənsə bir neçə kitab
Nə alim olar o, nə də süxən var.
Başı boş o yazıq heyvan nə bilsin
Dalında odundur, ya kitab-dəftər.

İnsan üçün ən dəyərli əxlaqi keyfiyyətlərdən biri də düzlük, doğruçuluqdur. Sədinin fikrincə, düzlüklə çalışan adama zaval yoxdur. Əyri, pis işlərlə məşğul olan insanlar hər şeydən əvvəl özlərinə pislik edirlər!

Sədi yazır:

Düzlüyü çox sevir taleyi yazan,
Görmədim düz yolda yolunu azan.

İnsan həyatda doğru yol tutsa, öz zəhməti ilə dolansa, öz şərəf və ləyaqətini qorumuş olar.

Sədi uşağın tərbiyəsində ailənin də böyük rol oynadığını göstərir. O, ataları oğullara nümunə olmağa çağırır: «Atasına hörmət etməmiş oğul atadan hörmət gözləməməlidir», «Oğluna hörmət etməmiş atanın oğlundan hörmət gözləməyə haqqı yoxdur».

Ailədə səmimiyyət, qarşılıqlı hörmət, ailə üzvlərinin bir-birinə məhəbbəti tərbiyə işinə müsbət təsir göstərən amillərdəndir. Əgər övladın öz valideynlərinə hörmət və məhəbbəti yoxsa, onu cəmiyyət üçün yararlı şəxsiyyət hesab etmək olmaz. Sədi bir hekayətində deyir:

«Alimlərin yazdığına görə, əqrəbin doğumu başqa heyvanların doğumuna oxşamaz. Əqrəbin balası anasının qarnını deşib bayıra çıxır. Buna görə onların yuvasından əqrəb qabıqları tapılar.

Bir gün bir hökmdarın yanında həmin məsələ haqqında danışdım. O, dedi: — Mən də bu sözün doğruluğuna inanıram, şübhəsiz, bu cür də olmalıdır, çünki ancaq kiçiklikdə anası ilə belə rəftar edən böyüklükdə belə bir şöhrət tapar və hörmət qazanar.

Kim sadiq olmasa öz nəsəbinə,
Nə bir dostu olar, nə də hörməti.

Öz doğmalarına, yurduna məhəbbəti, bağlılığı olmayan insanın nə hörməti olar, nə də bir dostu.

Sədi Şirazi insanda nəfs tərbiyəsinə də xüsusi əhəmiyyət verir. Əgər insan nəfsinə qalib gəlsə, mələk səviyyəsinə yüksələ bilər. Nəfsinə qul olarsa, o, heyvanilәşər.

Hekayətdə deyilir:

«Böyüklərdən birindən soruşdular: — Nə üçün hədisdə deyilmişdir ki, sənin ən birinci düşmənin iki böyrək arasında yerləşmiş nəfsindir? Dedi: — Ona görə ki, hər hansı düşmənə yaxşılıq etsən dost olar, nəfsə güzəştə getsən düşmənçiliyi artar:

Kimi razı salsan qul olar sənə,
Nəfsi razı salsan əsir olarsan».

Başqa bir hekayətində Sədi belə yazır ki, «Bir müridin öz müridinə belə dediyini eşitdim:

— Əgər insan övladı ruziyə bağlı olduğu qədər ruzi verənə bağlı olsaydı, mövqeyi mələklərdən üstün olardı.

İnsan öz nəfsini qorumaqla bərabər, həm də onu yaradan tanrıya sadiq olmalıdır. Allah onu ana bətnində bir nütfədən yaratdı, şüur, ağıl, nitq verdi. İşləmək, çalışmaq üçün əllər yaratdı ki, o, öz ruzisini qazansın, başqalarına əl açıb alçalmasın. Əgər onun allaha inamı və imanı çox olarsa, o, mələklərə bərabər tutular.

Sədinin fikrincə, insanın dəyəri onun ədəbli, ərkanlı olması ilə ölçülür. Bir hekayətində yazır:

«Uşaq idim, bir böyükdən həddi-büluğ haqqında soruşdum.

Dedi: — Kitablardan oxumuşam ki, üç əlaməti var: biri — on beş yaşına çatmaq, ikincisi — şeytan olmaq, üçüncüsü — bığ yeri tərləmək. Amma həqiqətdə bir nişan vardır, o da öz nəfsinin xeyrindən çox, allah rizasına çalışmağıdır. Kimdə bu xüsusiyyət yoxdursa, adamlar onu həddi-büluğa çatmış, kamalə yetişmiş hesab edə bilməzlər.

Qırx yaşlının əqli, ədəbi yoxsa,
Yaraşmaz ki, ona adam deyərlər.

Yaş xüsusiyyətlərinə toxunan Sədi göstərir ki, insan o zaman ağıllı, kamala çatmış hesab edilə bilər ki, o öz xeyrindən çox, allah rizası üçün çalışsın, ədəb, ərkan gözləsin. Qırx yaşında bir insanda bunlar yoxsa, onu cəmiyyət üçün yararlı, ağıllı adam hesab etmək olmaz. Sədinin bu fikri «Ağıl yaşda deyil, başdadır» xalq məsəli ilə üst-üstə düşür.

İnsanda hər şey gözəl olmalıdır. Onun zahiri də, mənəviyyatı da, əməli də! Xeyirli işlər görmək, səxavətlilik, mərdlik, sınıq könüllərə məlhəm olmaq ən vacib insani keyfiyyətlərdir. Əgər insanda bu keyfiyyətlər yoxdursa, onları rəssamların çəkdiyi rəngli, ruhsuz insan rəsmlərinə bənzətmək olar.

Zənn etmə ki, surətdədir, qamətdədir adamlıq,
Cavanmərdlik, səxavətdir adamlığa əlamət.
Şübhəsiz ki, mahir rəssam al və yaşıl rəngilə
Divarlarda çəkə bilər adama bənzər surət.
Nə fərqi var divardakı bu nəqşi ilə insanın,
Əgər onda yoxdursa bir ehsan, hünər, fəzilət,
Hünər deyil bu dünyanı ələ almaq əzizim,
Hünərin var bir ürəyi ələ alıb, qıl rahət.

Dünyanı fəth etmək, var-dövlət sahibi olmaqdansa, xeyirli işlər görüb, xeyirxahlıq etmək, ehtiyacı olanlara yardım göstərmək daha vacibdir, daha xeyirlidir.

Sədi bir hekayətində göstərir ki, xeyirli işlər görmək, imkansızlara yardım etmək Həccə getməyə bərabərdir. Zülmkar bir hacı haqqında o belə deyir:

«Bir dəfə Həcc zəvvarları arasında dalaşma düşür, mən də piyadələr içərisində idim, əməlli-başlı vuruşurduq, bir-birimizlə əməlli-başlı vuruşurduq, bir-birimizi kötəkləyib baş-gözünə vururduq, söyüş söyürdük, ağzımıza gələni deyir, əlimizə keçəni döyürdük. Eşitdim dəvə üstündə kəcavənin bir gözündə oturan adam o biri gözündə oturana belə deyirdi: - Qəribə şeydir, piyada şahmat xanasında gedib başa çatanda vəzir, yəni əvvəlkindən yaxşı olur, bu Həcc piyadələri Məkkəyə çatanda niyə belə dəli olublar?!

Bu sözümü söyləyin o zülmkar hacıya,
Ki, zülmlə soyur xalqın dərisini yanmadan.
Özü deyil, hacı onun dəvəsidir, belə ki,
O zavallı tikan yeyib, yük daşımış hər zaman.

Tikan yeyib, yük daşıyan dəvə zülmkar hacıdan çox yüksəkdə durur, daha dəyərlidir.

Elə buradaca qeyd edək ki, vaxtilə Sədi Şirazinin yalançı vaizlər haqqında yuxarıda qeyd etdiyimiz «Dəvə və tikan» məsələsi bu gün heyrətamiz dərəcədə ibrətlidir. Son zamanlar böyük dini mərkəzləri ziyarət etmək bir dəb şəklini alıb. 4-5 dəfə Həcc, Kərbəla, Məşhəd ziyarətinə gedənlər var və həmin kəslərin qapı, divar qonşuları bir tikə çörəyə möhtacdır. Bunlardan hansı haqq-təala yanında baqi olar və savaba yazılar. Böyük Şeyx Sədi məhz həmin məsəllə insanları daha aqil və xeyirxah olmağa çağırır.

Sənətə, peşəyə yüksək qiymət verən Sədi belə məsləhət görür ki, işi iş bilənə tapşırmaq lazımdır. Qabiliyyəti olmayan məsuliyyətsiz insana iş tapşırsan, sonunda peşiman olarsan.

Heç zaman iş bilən, ağıllı usta
Bədəslə ən mühüm vəzifə verməz.
Toxucu olsa da, həsir toxuyan,
Lakin inək işi ona verilməz.

Necə ki, xalq deyir: «Çörəyi ver çörəkçiyə, birini də artıq».

Məktəbdə əsas sima olan müəllimi, onların tərbiyə işindəki xidmətlərini Sədi çox yüksək qiymətləndirir. Müəllim öyrədən və tərbiyə edəndir. O, zəngin mənəvi keyfiyyətlərə malik yüksək mədəniyyətə və elmə sahib olan bir şəxs olmalıdır. Müəllim həlim təbiətli olmaqla yanaşı, həm də ciddiliyi və tələbkarlığı ilə seçilməlidir. Hekayətdə deyilir: «Məğrib ölkəsində qaraqabaq, acıdil, tündxasiyyət, mərdüməzar, gəda təbiət, bədgirdar bir mədrəsə müəllimi gördüm. Sir-sifətini görən müsəlman-

ların işi düz gətirməz, Quran oxumasına qulaq asanların üzü gülməzdi...

...Gah birinin al yanağına sillə vurardı, gah o birinin əl-ayağını falaqqaya qoyardı... axırda valideynlər onun qəddarlığını başa düşdülər, döydülər... mədrəsədən qovdular. Dərsləri həlim təbiətli, yumşaq xasiyyət, mehriban, ehtiyacı olmayınca danışmayan, heç kəsin qəlbinə dəyməyən, könlünə toxunmayan bir müəllimə tapşırdılar». Birinci müəllimin qorxusu şagirdlərin ürəyindən çıxdı, ikinci müəllimin mələk təbiətli olduğunu görüb div xasiyyətli olmağa başladılar. Onun həlimliyinə bel bağlayıb elm öyrənməyi tərk etdilər, oxumaq əvəzinə oyun çıxardılar, min bir kələk qurdular, əlindəki yazı lövhələrini bir-birinin başına vurub qırdılar.

Müəllim olarsa səssiz, mülayim,
Uşaqlar bazarda oynayar daim.

İki həftədən sonra həmin mədrəsənin yanından keçirdim, gördüm birinci müəllimin könlünü alıb yenə öz yerinə qaytarmışlar... ixtiyarsız olaraq dedim: «Yenə də bu iblisi bu mələklərə müəllim ediblər?!».

Dünyagörmüş hazırcavab bir qoca dedi: «Xoşdur ustad cəfası ata məhəbbətindən». Göründüyü kimi, Sədi bu peşənin nə qədər çətin və məsuliyyətli olduğunu göstərərək müəllim üçün səmimiyyətlə yanaşı, ciddi və tələbkarlığı da əsas götürür. Müəllim mələk təbiətli olanda uşaqlar div xasiyyətli böyüyəcəklər. Onun bu fikri «Ağladan yanında otur, güldürən yanında yox» atalar sözü ilə üst-üstə düşür. Sədi müəllim əməyinə yüksək qiymət verərək göstərir ki, müəllimin borcu uşaqların tərbiyəsi ilə daha çox məşğul olmaq və onların əxlaqının gözəlliyinə daha çox fikir verməkdir.

Alimlərdən biri bir şahzadəyə dərs deyir, lakin rəhmsizcə döyür, olmazın əziyyətlər verirdi. Bir dəfə uşaq tab gətirə bilməyib atasının yanına şikayətə getdi. Köynəyini çıxarıb göyərmiş bədənini atasına göstərdi. Atasının ürəyi yandı, müəllimini çağırtdırıb dedi: — Mənim oğluma etdiyin o əziyyət və tənbehi heç bir rəiyyət övladına etmirsən, bunun səbəbi nədir?

Dedi: — Səbəbi odur ki, gərək hamı danışanda ağzının sözünü bilsin, xalq yanında özünü yaxşı aparsın, xüsusilə padşahlar; çünki şahların dediyi hər söz dillər əzbəri, tutduğu hər iş əllər vərdişi olur, qara camaatınkına isə o qədər əhəmiyyət verən olmaz:

Yüz nalayiq iş görərsə bir kasıb,
Yüzdən birin bilməz dostlar-aşnalar.
Amma sultan bircə gülünc söz desə,
Dilə düşər ölkə-ölkə dolanar.

Deməli, cəmiyyət içərisində xüsusi nüfuz qazanan, mənsəb sahibi olan böyüklərin uşaqlarının tərbiyəsilə daha çox məşğul olmaq, onların əxlaqının gözəlliyinə daha çox fikir verməK müəllimin borcudur.

Tərbiyə mürəkkəb və uzun sürən bir prosesdir. Bu işdə gecikmək, səhvə yol vermək olmaz. Tərbiyəçi uşağa qarşı çox diqqətli olmalı, onda olan mənəvi qüsurları, nöqsan cəhətləri vaxtında aşkar edib, islah etməlidir. Uşaq nə qədər kiçikdirsə, onu tərbiyə etmək, hisslərinə təsir göstərməklə nöqsanlarını aradan qaldırmaq asan olar. Sədi Şirazi hekayətlərinin birində deyir:

Kiçik ikən hər uşaq edilməzsə tərbiyət,
Böyüyəndə görünməz onda ədəb, nəzakət.
Yaş çubuğu, istəsən hər şəkilə salarsan.
Od qurudub düzəldər o çubuğu nəhayət.

Uşağın gələcəyi onun кiçiк yaşlardan necə tərbiyə olunmasından asılıdır. Hər bir valideyn və müəllim tərbiyə işinə məsuliyyətlə yanaşmalı və bilməlidir кi, düzgün tərbiyə xoş gələcəк, ədəbli, mərifətli övlad deməкdir. Sədinin bu fiкri «Ağac yaş iкən əyilər» atalar sözü ilə bir səslənir.

Sədi Şirazinin çoxşaxəli yaradıcılığı içərisində təlim-tərbiyə haqqında fiкirləri onun yaradıcılığının aparıcı tərəfindəndir кi, əsrlər boyu кitabları bir dərsliк кimi istifadə edilmişdir. Şübhəsiz, böyüк Şərqdə məşhur olan həm «Gülüstan», həm «Bustan» əsərləri məкtəb və mədrəsələrdə конкret olaraq tərbiyəvi üsul və vasitələrin, prinsiplərin ümumi toplusu təsiri bağışlayır və istifadə edilirdi. Onun «Gülüstan» əsərindəкi «Əxlaqi heкayətləri» dediyimizə tutarlı misaldır. O, bu heкayətlərdə sona qədər sədaqəti, sidqi, məhəbbəti tərənnüm və gənclərə təlqin edir.

Sədi tərbiyənin bir çox üsullarından nəsihət, məsləhət, nümunə və s. istifadə olunmasını tövsiyə edir. Söz ən güclü tərbiyə vasitəsidir. Söz təsirli və inandırıcı olarsa, uşağın qəlbinə, ruhuna təsir etməк, ona haкim olmaq olar. Sədi tərbiyəçilərə məsləhət görür кi, sizin nəsihətlərinizə qulaq asan olmasa da, siz nəsihət verin, yəqin кi, bir zaman bunun faydası olar. Bir heкayətdə yazır: «Bir zahid oğluna əmilərindən çoxlu miras qaldı. O, bunu eyş-işrətə israf etməyə başladı. Görmədiyi yaramaz iş, dadmadığı içкi qalmadı. Nəhayət, ona nəsihət verib dedim:

— Oğul, adamın gəliri çaya, eyş-işrət isə dəyirmana oxşar. Yalnız o adam кefi istədiyi кimi xərcləyə bilər кi, кifayət qədər gəliri olsun...

Xərcini az elə, yoxdursa gəlir,
«Dəniz mahnısında» belə deyilir,
«Yağmasa dağlara əgər yağış, qar,
Bir ilin içində Dəclə quruyar».

Ağlını başına toplayıb eyş-işrətdən əl çəк. Var-dövlətin tüкənər, darlığa düşüb peşimançılıq çəкərsən!...

Kef məclisində çalğıya qulaq asmaq oğlana xoş gəldiyi üçün sözüm qulağına batmadı, etiraz edərəк dedi:

— Bu günün şadlıq və sevincini sabahкı qəm qorxusu ilə puç etməyi ağıllı adamlar bəyənməzlər.

O varlı-dövlətli bəxtəvərlərin,
Bəd gündən varmıdır qorxusu bəyəm?
Kefindən əl çəкmə bir anda, dostum,
Sabahкı gün üçün bu gün çəкmə qəm.

Bundan əlavə mən səxavət taxtında oturub, mərhəmət кəmərini belimə bağlamışam və əliaçıqlıqda camaat içində şöhrət qazanmışam.

Kimin səxavətdə çıxdısa adı,
Pulu saxlamağı o bacarmadı.
Elə кi, yaxşı ad qazandı insan,
Kərəm qapısını bağlamaz bir an.

Nəsihət qəbul etmədiyini və mənim isti nəfəsimin onun soyuq dəmirinə təsir etmədiyini gördüкdə, öyüd verməкdən əl çəкdim, onunla dostluğu кəsdim və filosofların bu sözünü yerinə yetirdim: «Sən sözünü de, qəbul etməsələr, özləri təqsirкardırlar».

Sözünə yoxsa da bir qulaq asan,
Sən yenə öyüd ver mərd-mərdana.
Çox çəкməz görərsən döşünə döyən
İlişib düşəndə dara zindana,

Əlini dizinə vurub söyləyir:
Kaş qulaq asaydım o mərd insana.

Az keçdikdən sonra, necə ki, düşünmüşdüm, elə də oldu. Onu acınacaqlı bir vəziyyətdə gördüm... Paltarına yamağı yamaq üstündən vurub, bir loxma çörək üçün dilənirdi. Əhvalına ürəyim yandı, bu halda onu danlamağı və yaralı ürəyinə duz səpməyi insafsızlıq hesab edib özözümə dedim:

Yaramaz bir hərif məstlik zamanı,
Düşünməz ki, sabah qalacaq darda.
Ağaclar baharda meyvə versə də,
Qış fəsli lüt qalar soyuqda, qarda».

Deməli, insan təkcə bu gün üçün yaşamamalı, hər şeyi ölçüb-biçməli, gələcəyi düşünməlidir. Ağıllı məsləhətə qulaq asmaq, qənaətcillik insan üçün vacib keyfiyyətdir.

Hər bir uşaq özünə məxsus fərdi keyfiyyətləri, qabiliyyəti, xarakteri olan heç kəsə oxşamayan bir varlıqdır. Elə buna görə də tərbiyədə eyni üsulla hamıya təsir etmək mümkün deyil. Sədi yazır: «Bir şah oğlunu bir ədibə tapşırıb dedi: — Bunu öz övladın kimi tərbiyə et! Ədib baş əyib hökmdarın tapşırığını qəbul etdi. O, uzun müddət oğlanın tərbiyəsilə məşğul olub, səy göstərdisə də, heç bir fayda vermədi. Ədibin öz oğlanları isə elm və bilikdən şöhrət tapdılar. Şah ədibə qəzəblənib dedi: — Vədə xilaf çıxıb, tapşırığımı sədaqətlə yerinə yetirmədin.

Ədib dedi:

— Böyük hökmdar bilməlidir ki, tərbiyə eyni idi, qabiliyyət isə müxtəlif».

Doğrudur ki, daşdan çıxar cəvahir,
Lakin hər daşda bir cəvahir olmaz.
Hər yerdə görünər Süheyl ulduzu,
Lakin hər məkanda təsir bir olmaz.

Sədi Şirazinin hikmətləri içərisində ünsiyyət, münasibət və insanın insanla rəftarı xüsusi yer tutur. O, özünün ölməz hikmətləri ilə nəsr və nəzm şəklində olan hekayətləri ilə bunu təsdiqləyir. Aşağıdakı qeyd edəcəyimiz hekayə dediklərimizin dəlilidir.

«Bir şah öz əcəm qulu ilə gəmiyə minmişdi. Demə qul ömründə gəmiyə minməmiş, dəniz səfərinin əziyyətini görməmiş imiş. O, qorxudan əsməyə və ucadan ağlamağa başladı. Gəmidəkilər nə qədər çalışdılarsa, onu sakit edə bilmədilər. Qulun bu halı şahın kefini pozdu. Lakin bir çarə tapa bilmirdilər. Gəmidə müdrik bir adam var idi, vəziyyəti belə gördükdə dedi:

— İcazə versəniz, mən onu sakit edə bilərəm.

Hökmdar dedi:

— Son dərəcə lütf göstərmiş olarsınız.

Əmr etdi qulu dənizə atdılar. Qul bir neçə dəfə suya batıb çıxdı; sonra saçlarından tutub onu gəmiyə tərəf dartdılar. O, iki əlli sükandan yapışıb sallandı və elə ki, gəmiyə çıxdı, susub dinməz, söyləməz bir küncdə oturdu. Şaha bu qəribə gəldi, haman müdrik adamdan soruşdu ki, bunda nə hikmət var?

Dedi:

— Bu qul dənizdə qərq olmaq qorxusunu keçirmədiyindən gəmidəki əmin-amanlığın qədrini bilmirdi. O da məlumdur ki, fəlakətə düşməyən sakitliyin qədrini bilməz!

Ey tox, sənə xoş gəlməyir əgər arpa çörəyi,
Bil кi, sənə xoş gəlməyən bu şey mənə nemətdir.
Cənnət əhli bir cəhənnəm sanar iкən erafı.
Cəhənnəmin əhli üçün eraf özü cənnətdir.

Fərqi vardır: birisinin ağuşunda gözəl yar,
Digərinin iкi gözü yolda qalmış intizar».

Deməli, eyni üsulla hamıya təsir etməк, tərbiyə verməк mümкün deyil. Uşağın tərbiyəsində fərdi xüsusiyyətlər nəzərə alınmalıdır. Burada S.Şirazi qabiliyyət ifadəsini irsiyyət mənasında işlədir. Müasir istilahlarla desəк, tərbiyədə və təlimdə fərdi yanaşma prinsipini irəli sürmüş, diferensial təlim tərəfdarı olmuş və hər bir uşağın fərdi imкanlarına uyğun təlim və tərbiyə metodları seçməyin zəruriliyini qeyd etmişdir.

Göründüyü кimi, Sədi «Gülüstan» əsərində gəncləri humanizm, xeyirxahlıq, ləyaqətliliк, vicdanlılıq, vətənpərvərliк ruhunda tərbiyə etməyi, onlarda elmə, təhsilə, əməyə maraq yaratmağı ayrı-ayrı heкayətlərində izah edir, münasibət bildirir. Sədinin toxunduğu tərbiyə məsələləri bu gün də aкtualdır.

## ƏDƏBİYYAT

1. Sədi Şirazi. Gülüstan. Baкı, «Azərnəşr», 1987.
2. Qaralov Zahid. Tərbiyə. 3 cild. Baкı, 2003.
3. Pedaqogiкa (Talıbov Y., Ağayev Ə., İsayev İ., Eminov A.). Baкı, 1993.
4. Qasımova L., Mahmudova R. Pedaqogiкa. Baкı, 2003.
5. Rüstəmov F. Şərqdə pedaqogiкa tarixi. Baкı, «Nasir», 2002.

## ВОПРОСЫ ВОСПИТАНИЯ В ПРОИЗВЕДЕНИИ САДИ ШИРАЗИ «ГЮЛИСТАН»

С.Б.АЛЛАХВЕРДИЕВА

### РЕЗЮМЕ

На основе произведения известного на Востоке и во всем мире поэта-мыслителя Сади Ширази «Гюлистан» исследованы вопросы воспитания у молодежи таких высших чувств как гуманизм, добро, достоинство, совесть и честь. Далее раскрываются пути и средства формирования у молодого поколения позитивного отношения к науке, образованию и профессии.

## THE MATTERS OF UPBRİNGİNG İN THE WORK OF "GULİSTAN" BY SADİH SHİRAZİH

S.B.ALLAHVERDİEVA

### SUMMARY

On the basis of worк of a well-кnown poet-thinкer in the west and all over the world Sadih Shirazih there investigated the matters of upbringing among the youth such кind of good feelings liкe humanism, charity, dignity, conscience and honour as well. Then there discovered the ways and means of forming positive relations among the young generations towards science, education and profession as well.